# Vətən müharibəsindəki qələbəmiz təsdiq etdi ki, Azərbaycan öz inkişafının zirvəsindədir



***"Müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdikdən bir həftə sonra həmin ərazilərdə yenidənqurma və bərpa işlərinə start verildi. Xatırladım ki, ötən il noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında oldular. Həmin gün xalqımız üçün çox əlamətdar oldu. Çünki Füzuli–Şuşa avtomobil yolunun təməli qoyuldu. Sonrakı səfərlərdə isə "Böyük qayıdış" planının reallaşdırılmasının şahidi olduq. Bu plan dünyanın ən müasir elmi nailiyyətlərini, ətraf mühitə ciddi diqqətlə yanaşılmasını özündə ehtiva edir. Dövlət başçımızın və birinci xanımın işğaldan azad edilmiş bölgələrə bundan sonrakı səfərləri intensiv xarakter aldı. Hər dəfə yeni obyektlərin, yaşayış məhəllələrinin təməli qoyuldu".***

**Bu fikirləri Milli Məclisin deputatı, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə bildirdi.**

Partiya sədri dedi ki, istər müharibə başlayanda, istərsə də bundan əvvəl Ermənistan ordusu sərhədyanı ərazilərdə təxribatlar törədəndə, günahsız mülki əhalini qətlə yetirəndə hamılıqla dövlət başçımızın ətrafında birləşib Vətənimzin müdafiəsində həmrəylik nümayiş etdirdik : "Ölkə ictimaiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli və siyasi həmrəyliyə xidmət edən təşəbbüslərinin şahididir. 2020-ci ildə aparılan siyasi dialoqun məntiqi nəticəsi kimi, ilk çağırışla iyulun 15-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tariximizdə, ilk dəfə olaraq, ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, sentyabrın 27-də isə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşib birgə dəstək bəyanatı imzaladılar. Siyasi sabitliyə, etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edən bu addım milli həmrəyliyin, xalq–hakimiyyət birliyinin təcəssümüdür".

A.Mollazadə daha sonra qeyd etdi ki, hazırda Qarabağ zonasında yenidənqurma və abadlıq geniş vüsət alıb. Üç rayonda beynəlxalq hava limanı tikilir. Artıq Füzuli Beynəlxalq Hava Limanı ilk sərnişinlərini qəbul edib. Bu hava limanı cəmi 9 ay ərzində tikilib- istifadəyə verildi. Yol infrastrukturu, qaz, su, enerji xətləri yenidən qurulur. Zəngilan rayonuda "ağıllı şəhər", "ağıllı kəndl" layihələri uğurla icra olunur. Azərbaycan vətəndaşları öz torpaqlarına qayıdarkən yeni iqtisadi sistemdə yaşayacaqlar.

Dövlətimizin başçısı Xocavənd rayonunda səfərdə olarkən ictimaiyyət nümayəndələri ilə görüşündə də əminliklə bildirdi ki, bu ərazilər cənnətə çevriləcək. O, Xocavənd rayonunun turizm potensialının çox geniş olduğunu bildirdi. Dedi ki, bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar – cənnətə oxşayan bir yerdir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası burada yerləşir.

A.Mollazadə dövlət başçımızın Xocavənd barəsindəki gələcək planlarından söhbət açaraq bildirdi ki, tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, otellər tikmək üçün azərbaycanlı və xarici investorlar da dəvət ediləcək. Dünyada Xocavənd, Hadrut qəsəbəsi kimi gözəl, səfalı yerlər çox azdır. Ermənistan ordusunun vəhşiliyindən danışan ölkə başçısı ermənilərin Kəlbəcər, Laçın, Zəngilan rayonlarında 60 min hektara yaxın meşə sahəsini tamamilə məhv etdiyini vurğuladı. Bütün bunlara baxmayaraq, həmin ərazilərin təbiətinin qorunmasının zəruri olduğunu diqqətə çatdıran ölkə başçısı dedi ki, vətəndaşlar bura qayıtdıqdan sonra, ilk növbədə, bu təbiətin qorunmasına, gərək özləri fikir versinlər və əlbəttə, dövlət də öz üzərinə düşən vəzifələri icra edəcək.

***Söhbəti yazdı:***
***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 15 oktyabr.- S.4.